# “Tərəqqi” texniki-humanitar liseyi

Təhsil ocağı 1924-cü ildə 66 nömrəli orta ümumtəhsil məktəbi adı altında fəaliyyətə başlayıb. II Dünya müharibəsi illərində (1941-1945) hospital kimi istifadə olunan təhsil müəssisəsi 1946-1990-cı illərdə 66 nömrəli rus məktəbi adlanıb. 1991-ci ildən musiqi və incəsənət təmayüllü 66 nömrəli beynəlmiləl orta məktəb adı ilə fəaliyyətini davam etdirib və 1993-1994-cü tədris ilindən başlayaraq məktəbə Qarabağ uğrunda döyüşlərdə şəhid olmuş İltifat Hacıyevin adı verilib. 1999-2002-ci illərdə ingilis dili təmayüllü orta məktəb, 2003-cü ildən 2006-cı ilə qədər 66 nömrəli ingilis dili öyrədən texniki-humanitar yönümlü məktəb-lisey, 2006-cı ildən isə “Tərəqqi” texniki-humanitar liseyi adlanır. Liseyin direktoru əməkdar müəllim Məhbubə Məmmədovadır.












## Maddi-texniki baza

Tədris müəssisəsi ikimərtəbəli əsas binadan ibarətdir. Liseydə geniş və işıqlı sinif otaqları, fənn kabinetləri, informatika otaqları, konfrans zalı, böyük kitabxana, xidməti kabinetlər, idman zalı mövcuddur. Liseyin kitabxana fondunda kitabların sayı 18479 nüsxəyə bərabərdir. Onlardan 14354 nüsxə dərslikdir. Kitabxananın nəzdində müasir tələblərə cavab verən oxu zalı fəaliyyət göstərir. İnformasiya texnologiyalarının geniş tətbiqi üçün təhsil müəssisəsi müasir texniki avadanlıqlarla təchiz edilib. Hazırda liseyin bütün sinif otaqları internet şəbəkəsinə qoşulmuşdur. Təhsil ocağında 64 ədəd kompüter, 35 ədəd printer, 77 ədəd netbuk, 9 ədəd “ağıllı lövhə” vardır.

## Tədrisin təşkili

Liseydə təhsil Azərbaycan və rus dillərində aparılır. Xarici dil kimi ingilis, fransız və rus dili tədris olunur. Hazırda liseydə 882 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 90 nəfər müəllim məşğul olur. Liseyə qəbul I sinifdən müsabiqə yolu ilə həyata keçirilir. Təhsil ocağının fəaliyyəti və strukturu 3 pillədən ibarətdir. İbtidai təhsil pilləsi üzrə liseydə 15, ümumi orta təhsil pilləsi üzrə 17, tam orta təhsil pilləsində isə 5 sinif mövcuddur. Şagirdlərin meyil və marağını təmin etmək məqsədi ilə liseydə dram, ekologiya, diyarşünaslıq, “gənc səyahətçilər” dərnəkləri, voleybol və basketbol, rəqs qrupları yaradılmışdır. Liseydə riyazi məntiq, nitq mədəniyyəti, üslubiyyət üzrə maraq dərsləri keçirilir. Təhsilin əsas məqsədi müstəqil respublikamızın inkişaf parametrləri üzrə qabaqcıl dünya ölkələri səviyyəsinə qaldırılmasına qadir olan gənc nəsil yetişdirməkdir. Liseydə təhsil demokratik və humanist prinsiplər əsasında qurulmuş və əsl vətəndaş, şəxsiyyət formalaşmasına yönəlmişdir. Müasir həyatda istedadların müəyyənləşdirilməsi, istedad fenomeninin axtarışında olmaq, onlarla aparılan işlərin məzmununun konkretləşdirilməsi əsas məqsədlərdəndir. Bu gün istedadlı uşaqlarla işləyərkən onların potensial imkanlarının meydana çıxarılmasında, daha çox inkişafının təmin edilməsində, dövlət tələbinin yerinə yetirilməsində liseyin hər bir pedaqoqu vətəndaş məsuliyyəti daşıyır. 2015-2016-cı tədris ilində liseyin strateji inkişaf istiqamətlərindən biri öyrənmə mühitinin müasir tələblərə uyğun, təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin etməkdir.

Tədris ocağında tədrisin keyfiyyəti daim diqqət mərkəzində saxlanılır. Liseydə I-VIII siniflər üzrə 2 dəfə-yanvar və iyun aylarında böyük summativ qiymətləndirmə aparılır. IX-XI siniflərdə isə buraxılış imtahanları ilə yanaşı il ərzində 4 dəfə monitorinq və müxtəlif yoxlama işləri keçirilir. Aşağı nəticələri olan şagirdlər xüsusi qruplara cəlb edilir. İllik qiymətləri qeyri-qənaətbəxş olan şagirdlər müvafiq qaydada digər ümumtəhsil məktəblərinə köçürülür. Liseydə hər ayın son həftəsi valideynlərlə görüşlər keçirilir. Valideynlərin maarifləndirilməsi məqsədilə şagirdlərin yaş dövrü, ünsiyyət, kurikulumlar və qiymətləndirmə mövzularında seminarlar keçirilir. Təhsil ocağında psixoloji xidmət fəaliyyət göstərir. Məsuliyyətin bölüşdürülməsi ciddi hesabatlılıq sisteminin yaradılması və ardıcıl şəkildə inkişafın monitorinqinin aparılması, nəticələrin təhlil olunaraq yekunlaşdırılması iş prinsipinin əsasıdır. Liseyin pedaqoji heyəti müasir təhsil texnologiyalarının səmərəli tətbiq olunması üçün peşəkarlığı ardıcıl və sistemli olaraq yüksəldir. Tədrisin keyfiyyətinin artırılması məqsədi ilə pedaqoji heyət psixoloji və metodik əsaslara söykənən metodik yardımla təmin edilir.

## Nailiyyətlər

Lisey 2008-ci ildə ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən “Ən yaxşı ümumtəhsil məktəbi” müsabiqəsinin qalibi olmuşdur. Lisey son 5 il ərzində ali məktəblərə qəbul üzrə yüksək göstəriciləri olan ilk onluğa daxildir. Son illərə nəzər saldıqda görərik ki, 2012-2013-cü tədris ilində liseyin məzunlarından 54 nəfəri ali məktəbə qəbul imtahanlarına sənəd vermiş və onlardan 42 nəfəri tələbə adını qazanmışdır. Həmin ildə məzunlardan iki nəfəri- Mədinə Vəliyeva və Nigar Fərhadlı 600-dən yuxarı bal toplayaraq Azərbaycan Tibb Universitetinə qəbul olunmuşdur. Bundan başqa, 5 nəfər isə 500 baldan yuxarı toplayaraq müxtəlif ali məktəblərə daxil olmuşdur. 2013-2014-cü tədris ilində liseyin 44 məzunundan 34 nəfəri ali məktəblərə qəbul olunmuşdur. Onlardan 2 nəfəri-Gültəkin Zülfüqarlı və Kamran Quliyev 600 baldan yuxarı, 10 nəfər isə 500 baldan yuxarı nəticə əldə etmişlər. 2014-2015-ci tədris ilində isə liseyin 62 məzunundan 35 nəfəri respublikamızın, 16 nəfəri isə xarici ölkələrin ali məktəblərinə qəbul olunmuşdur. Onlardan 5 nəfəri- Nigar Nağıyeva, Sənəm Qənbərova, Nərmin Əfəndizadə, Kənan Kürşad, Aytac Nəbiyeva 600-dən yuxarı bal toplamışdır. Liseyin 2015-ci il məzunu Nərmin Əfəndizadə təhsil ocağını qızıl medal ilə bitirmiş və qəbul imtahanlarında yüksək nəticə göstərərək Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuşdur.

Liseyin şagirdləri respublikamızda keçirilən fənn olimpiadalarında da müvəffəqiyyətlər əldə etmişlər. Belə ki, liseyin məzunu Nərmin Əfəndizadə 2012 və 2014-cü illərdə keçirilən respublika fənn olimpiadasında Azərbaycan dili və ədəbiyyatı fənni üzrə uğurla iştirak edərək III dərəcəli, 2014-cü ildə liseyin 11-ci sinif şagirdi Şahbaba Məmmədov tarix fənni üzrə fənn olimpiadasının şəhər mərhələsində II dərəcəli, 2016-cı ildə VIII sinif şagirdi Nurlan Xanmətov isə fizika fənni üzrə fənn olimpiadasında III dərəcəli diploma layiq görülmüşdür.

Tədris ocağının şagirdləri ölkəmizdə keçirilən bir çox müsabiqə və yarışlarda da liseyin adını şərəflə qoruyurlar. Belə ki, liseyin X sinif şagirdi Zərnigar Nəbiyeva ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə əlaqədar “Milli, mənəvi dəyərlər haqqında düşüncələrim” mövzusunda keçirilən inşa yazı müsabiqəsinin qalibi olmuşdur. Bundan başqa, liseyin şagirdi Bilqeyis Axundova ümummilli liderin anadan olmasının 93-cü ildönümü münasibətilə keçirilən “Ən yaxşı təqdimat” müsabiqəsinin qalibi olmuş, X sinif şagirdi Fidan Sultanlı isə şeir müsabiqəsində II yeri tutmuşdur. Təhsil ocağının XI sinif şagirdi Aytac Qurbanova “Ədəbiyyat biliciləri” Respublika müsabiqəsinin qalibi olmuşdur. VII sinif şagirdi Alina Hümbətova Rusiya Əməkdaşlıq Cəmiyyətinin və Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin keçirdiyi rus dili fənn olimpiadasında III dərəcəli diplom almışdır.

Liseyin şagirdləri respublikada keçirilən idman yarışlarında da uğurla çıxış edir. VIII sinif şagirdi Sirayət Allahverdiyev hazırda “İnter” futbol komandasının üzvüdür və 2015-ci ildə komandanın tərkibində Respublika üçüncüsü, 2016-cı ildə isə Respublika ikincisi olmuşdur. Bundan başqa, VIII sinif şagirdi Sənan Əliyev qaydasız döyüş növündə “Avrasiya” çempionatında I yerə çıxmışdır. VIII sinif şagirdi Suad Kazım isə döyüş növləri üzrə idmanda 50 kq çəki dərəcəsində Respublika birincisi olmuşdur. Liseyin şagirdlərindən Ulu Fərhad 2015-ci ildə stolüstü tennis yarışlarında Bakı şəhəri üzrə 3-cü, Tural İsayev qaydasız döyüş idman növü üzrə 60-65 kq çəki kateqoriyasında “Avrasiya” turnirində 2-ci, İbrahim Şərufli 2016-cı ildə klassik güləş üzrə Respublika çempionatında 1-ci, Milana Minakovskaya isə 2015-ci ildə bədii gimnastika üzrə Respublika çempionatında 2-ci yerlərə layiq görülüblər. Lakin liseyin idman uğurları bununla bitmir. Belə ki, təhsil ocağının şagirdlərindən Sevil Xəlilova cüdo üzrə beynəlxalq Avropa turnirində 1-ci, Ruslan Xəlilov 2016-cı ildə cüdo üzrə respublikada 3-cü, Əlipaşa Kazımov 2016-cı ildə qaydasız döyüş növü üzrə respublikada 1-ci və Orxan Abdullayev taekvando üzrə respublika çempionatında 1-ci yerə çıxmışlar.

Liseyin uğurlarının əsas təminatçısı yüksək səviyyəli pedaqoji kadrlardır. Hazırda liseydə 3 nəfər “Əməkdar müəllim”, 2 nəfər “Tərəqqi” medallı, 5 nəfər isə “Qabaqcıl təhsil işçisi” döş nişanı olan müəllim işləyir. Bundan başqa, müəllimlərdən 2 nəfəri fəlsəfə doktorudur. Müasir təlim üsulları üzrə təlimçi-müəllimlərin sayı isə 6 nəfərdir.

## Layihə-tədqiqat qruplarının fəaliyyəti

Liseydə uzun illər “Kiçik Akademiya” və “Şagird Parlamenti” fəaliyyət göstərib. Lakin sürətlə inkişaf edən, intensiv dəyişən dövrdə bu təşkilatların fəaliyyət forması dəyişib, təhsilalanların meyil və marağının təmin edilməsi, istedadların aşkar edilməsi və inkişafı üçün daha çevik və səmərəli fəaliyyətə - layihə-tədqiqat qruplarının işinə başlanılıb. Layihələrdə iştirak hər bir şagird üçün inkişaf məkanı yaradılıb. Liseydə artıq 3 ildir ki, “İstedad axtarışında” layihəsi həyata keçirilir. Layihənin əsas aparıcı qüvvəsi liseyin IX və XI sinif şagirdləridir. Layihənin həyata keçirilməsi və təşkilində liseyin tarix müəllimi S.Yarmetovanın böyük əməyi var. Bundan başqa, lisey artıq 2 ildir ki, şagirdlərin mütaliə marağını, oxu mədəniyyəti, nitqini inkişaf etdirmək üçün “110 kitab” layihəsinə qoşulub. Qeyd edək ki, “110 kitab” layihəsinə III-X sinif şagirdləri cəlb edilib. Layihə çərçivəsində müəllimlər tərəfindən oxunan kitablarla bağlı müzakirələr keçirilib.

Liseydə “Kim, nə, harada”, “Niyə, nə üçün” layihəsi bir qrup müəllimin birgə fəaliyyəti nəticəsində uğurla tətbiq olunur. Bu yarışlarda şagirdlər üçün öyrənmə motivasiyası yaradılır, onların yaradıcılıq qabiliyyəti inkişaf etdirilir. Yarışlarda 10a, 9a, 11a, 6b, 11a sinifləri daha fəal iştirak edir.

“Pi işarəsinin pərəstişkarları” layihəsi də şagirdlər tərəfindən maraqla qarşılanır. Qeyd edək ki, layihə A.Papaşvili tərəfindən təşkil edilmiş və artıq 3-cü ildir ki, davam edir. Burada riyaziyyat tarixi, məntiq, bilik yarışları, varislik və ənənəyə çevrilən “Pi günü”nün qeyd edilməsi böyük əhəmiyyətə malikdir. Liseyin 7a sinfi bu layihənin ənənələrinin aparıcısıdır.

“Milli ənənələrimizi yaşadaq” layihəsi çərçivəsində müəllimlərdən A.Baxışovanın IIIb, X.Ağacanovanın IVa, İ.Məmmədovanın isə IIIa siniflərdə keçirdikləri “Novruz ənənələri” layihələri öz rəngarəngliyi və möhtəşəmliyi və məzmun dolğunluğu ilə seçilir. III b sinfinin müəllimi T.Süleymanovanın “Şəhidlər ölməz, Vətən bölünməz” layihəsi vətənpərvərlik tərbiyəsinin parlaq nümunələrindəndir. N.Əsgərovanın “Respublika Günü” layihəsinin təqdimatı şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsinin bariz nümunəsidir.

Müxtəlif xalqların mədəniyyəti, adət və ənənələrinin öyrənilməsi sahəsində “Biz hər dildə oxuyuruq” layihəsi çərçivəsində mahnı müsabiqəsi keçirilmiş və müsabiqədə 56 şagird iştirak etmişdir.

Tədris ocağında böyük şair, yazıçı və bəstəkarların yubiley tədbirləri ilə əlaqədar müsabiqələr təşkil olunur. Belə ki, M.Y.Lermontovun 200 illik yubileyi ilə əlaqədar şeir müsabiqəsi keçirilmiş və müsabiqədə şagirdlərdən Alina Hümbətova, Sənan Rüstəmov, Fidan Əliyeva, Nərmin Əliyeva fərqlənmişlər. Bundan başqa, liseydə Üzeyir Hacıbəyovun 130 illiyi ilə əlaqədar layihələr həyata keçirilmişdir. Dahi bəstəkarın yaradıcılıq gecəsində əsərlərindən parçalar nümayiş etdirilmiş, şagirdlər tərəfindən tamaşalardan səhnəciklər ifa olunmuşdur.

Liseydə “Söz xəzinəsi” layihəsi çərçivəsində yaradıcılıq müsabiqələri də keçirilir. İnşa, şeir, ifaçılıq müsabiqələrinin keçirilməsi, bədii yaradıcılıq gecələrinin təşkilində ədəbiyyat müəllimləri A.Əhmədova, T.Aslanova, S.Mahmudova, M.Tarverdiyeva layihə iştirakçılarının fəaliyyətini inkişafa yönəldir. Bu layihənin iştirakçıları həmçinin liseyin jurnalının təqdimatına hazırlaşır.

“Təbiəti qoruyaq” layihəsi də şagirdlərin diqqət və marağındadır. Layihə çərçivəsində “Botanika bağı”nın elmi əməkdaşları ilə silsilə görüşlər keçirilmiş, “Ağacların yaşının müasir üsullarla öyrənilməsi”, “Azərbaycanın qırmızı kitaba düşən flora və faunası” mövzularında müzakirələr aparılmışdır.

## Beynəlxalq əlaqələr

2013-cü ildən başlayaraq “Mədəd” təşkilatının təklifi əsasında lisey “E-Tuining” Plus Azerbaijan (Avropa İttifaqının “Fasiləsiz təhsil” proqramı) ailəsinə qoşulub. Proqrama liseyin ingilis dili müəllimi B.Aydınova rəhbərlik edir. Bu proqram liseyi Avropa, Asiya müəllimləri ilə əməkdaşlığa sövq edir. Proqram çərçivəsində lisey Böyük Britaniyanın 2 kolleci - London və Braytın Kral kollecləri ilə əlaqə qurub, onlarla tele-körpü yaradıb. “Bridging Cultures” (Mədəniyyətlər körpüsü) layihəsi çərçivəsində şagirdlər Azərbaycan mədəniyyətini, tarixini təblig etmişlər.

Pedaqoji əməkdaşlıq sahəsində isə lisey Türkiyənin Ankara şəhərində yerləşən Bilkənt Universiteti ilə əlaqələr yaradıb. Liseyin bir qrup müəllimi Bilkənt Universitetində beynəlxalq kurslara cəlb olunmuşdur.

**Niyazi RƏHİMOV,**
*“Azərbaycan müəllimi”*